**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**SƏRƏNCAMI**

№ 37 "26" Fevral 2025-ci il

**"1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsi barədə**

Binəqədi Rayon İcra Hakimiyyətinin 2025-ci il üçün mülki müdafiə tədbirləri planına əsasən 28 fevral 2025-ci il tarixdə "1 mart - Ümumdünya mülki müdafiə günü"nə həsr olunmuş "Mülki müdafiə əhalinin təhlükəsizliyinin təminatıdır" mövzusunda tədbir keçiriləcəkdir.

"1 mart - Ümumdünya mülki müdafiə günü"nün hərtərəfli hazırlanması və keçirilməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.22-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq

**qərara alıram:**

1. Tədbirə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının rəhbər heyəti, fövqəladə hallar komissiyası, mülki müdafiə qərargahı və mülki müdafiə qüvvələri cəlb edilsin.
2. Mülki müdafiə qərargahının rəisi tədbirdə iştirak edəcək şəxslərin hazırlığını təşkil etsin.
3. "1 mart - Ümumdünya mülki müdafiə günü"nün keçirilməsinə cəlb edilən rəhbər heyət və mülki müdafiə qüvvələrinin komandir-rəis və şəxsi heyəti funksional vəzifələrini öyrənsinlər və dəqiqləşdirsinlər.
4. Bu sərəncamı rəhbər tutaraq məşqə hazırlıq işləri görülsün.
5. Məşq qurtardıqdan sonra 5 gün müddətində məşq üzrə işlənmiş sənədlərin bir nüsxəsi Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinə təqdim edilsin.
6. Sərəncamın yerinə yetirilməsinə nəzarət mülki müdafiə qərargahının rəisinə həvalə edilsin.
7. Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, bu Sərəncamın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Elxan Allahverdiyev**

***ƏSLİ İLƏ DÜZDÜR:***
***Sənədlərlə və vətəndaşların müraciətləri***
***ilə iş şöbəsinin müdiri*** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner